**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**

**professor C.Mahmudova**
**"2" "03" 2026-cı il**

**SƏNƏTƏ APARAN YOL BİZDƏN KEÇİR**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 2026-2030-cu illər üçün**

# STRATEJİ İNKİŞAF PROQRAMI

**ADMİU-nun Elmi Şurasının**
**"2" "mart" 2026-cı il tarixli iclasında**
**06 saylı protokolla təsdiq edilmişdir**

**BAKI-2026**

## MÜNDƏRİCAT

**I. ADMİU haqqında........................................................................................3**
1.1. Qısa tarixi arayış........................................................................................3
1.2. Fəaliyyət istiqamətləri........................................................................................4
1.3. Resurslar........................................................................................5
1.4. GZİT təhlili........................................................................................6
1.5. PESTEL təhlili........................................................................................11

**II. MİSSİYA, GƏLƏCƏYƏ BAXIŞ VƏ ƏSAS DƏYƏRLƏR........................................12**
2.1. Missiya........................................................................................12
2.2. Vizyon........................................................................................12
2.3. Dəyərlər........................................................................................12

**III. STRATEJİ İNKİŞAF PROQRAMININ ƏSASLARI........................................12**
3.1. Hüquqi-normativ əsaslar........................................................................................12
3.2. Strateji İnkişaf Proqramının konseptual prinsipləri........................................13
3.3. Prioritetlər........................................................................................13
3.4. 2021-2025-ci illər üçün ADMİU-nun Strateji İnkişaf Planının dəyərləndirilməsi........14
3.5. Strateji İnkişaf Proqramının məqsəd və vəzifələri........................................14
3.6. ADMİU-nun 2026-2030-cu illər üzrə Strateji İnkişaf Proqramı........................................15

**IV. GÖZLƏNİLƏN NƏTİCƏLƏR........................................................................................20**

# I. ADMİU haqqında

## 1.1. Qısa tarixi arayış

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti respublikada xüsusi qabiliyyət tələb edən ali məktəblər arasında aparıcı mövqeyə malikdir.

Universitet öz əsasını 1923-cü ildə Azərbaycan Maarif Komissarlığının qərarı ilə yaradılmış Bakı Teatr Məktəbindən götürüb. Milanda təhsil almış, opera sənətimizin ilk professional müğənnisi, SSRİ xalq artisti Şövkət Məmmədovanın təşəbbüsü ilə yaradılmış bu sənət məktəbi 100 il ərzində böyük inkişaf yolu keçib.

İlk illərdən başlayaraq Bakı Teatr Məktəbinə Azərbaycanın görkəmli ziyalıları Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Hüseyn Cavid, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mirseyfəddin Kirmanşahlı, Aleksandr Tuqanov, Rza Sarabski, Moskva, Leninqrad və digər şəhərlərdən dəvət edilən professorlar Aleksandr Milovanov, Aleksandr Tuqanov, Danil Danilov kimi sənət adamları və mütəxəssislər pedaqoji fəaliyyətə cəlb edilib.

Teatr Məktəbinin ilk məzunları içərisində Fatma Qədri, Rza Əfqanlı, Şüa Şeyxov, Hacıməmməd Qafqazlı, Əfrasiyab Bədəlbəyli, Ələsgər Ələkbərov, Ələsgər Şərifov, Gülxar Həsənova və başqa tanınmış sənətkarlar olmuşlar.

Bakı Teatr Məktəbi təkcə Azərbaycan üçün deyil, Özbəkistan, Türkmənistan, Dağıstan, Krım və digər regionlar üçün də aktyor və rejissor kadrları hazırlayırdı. Bu kadrlardan görkəmli özbək aktyorları SSRİ Xalq artisti H.Nəsirova, N.Əliyeva, Z.Kabulov, X.Xocayev, S.Curabayev, Q.Yaqubov, məşhur türkmən aktyoru və rejissoru Altı Karlıyev və başqalarını qeyd etmək olar.

1945-ci ildə Teatr Məktəbinin bazasında Teatr İnstitutu yaradılıb. Teatr İnstitutunun ilk məzunları arasında Leyla Bədirbəyli, Məlik Dadaşov, Nəcibə Məlikova, Müxlis Cənizadə, Rauf Kazımovski, Arif Babayev, Kamil Rüstəmbəyov və başqa tanınmış sənət xadimləri var idi.

1968-ci ildən Azərbaycan Dövlət İncəsənət İnstitutu, 1991-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti statusu qazanan bu ali məktəbdə ötən illər ərzində təkcə teatr sahəsində deyil, kino sənəti, musiqi və rəssamlıq üzrə kadr hazırlığı aparılmağa başladı.

Musiqi fənləri görkəmli bəstəkar və ifaçılar - Danil Danilov, Aleksandr Milovanov, Şəfiqə Axundova, Niyazi, Gülarə Əliyeva, Rəhilə Cabbarova, Nailə Kərimova, Qulu Əsgərov, Lütfiyar İmanov, Hacı Xanməmmədov, Mobil Əhmədov, Yalçın Rzazadə, Canəli Əkbərov və başqaları və başqaları tərəfindən tədris edilib.

2000-ci ilə qədər Respublikada ali rəssamlıq təhsili verən yeganə tədris ocağı Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti olub. Tələbələrə Azərbaycanın görkəmli sənətkarları – Xalq rəssamları Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Lətif Kərimov, Böyükağa Mirzəzadə, Nadir Qasımov, Nadir Əbdürrəhmanov, Yusif Hüseynov, Tokay Məmmədov, Ömər Eldarov, Mirəli Mirqasımov, Fuad Salayev, Natiq Əliyev, Xanlar Əhmədov, Arif Əziz dərs demişlər. 2000-ci il 13 iyun tarixli, 349 nömrəli fərmanı ilə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin təsviri sənət profilli fakültələrinin bazasında Azərbaycan Rəssamlıq Akademiyası təsis edilmişdir. Bu gün də ADMİU-da 3 kafedradan ibarət Rəssamlıq fakültəsi fəaliyyət göstərir.

Bu gün Azərbaycanın teatr, kino, rəssamlıq sahəsində tanınan sənətkarların böyük qismi də ADMİU-nun məzunu olub.

Müxtəlif illərdə Universitetdə Aleksandr Tuqanov, Adil İsgəndərov, Məhərrəm Haşımov, Mehdi Məmmədov, Rza Təhmasib, Zəfər Nemətov, Ağakişi Kazımov, Eldar Quliyev, Tofiq İsmayılov, Yalçın Əfəndiyev, aktyorlardan Hacağa Abbasov, Kazım Ziya, İsmayıl Dağıstanlı, Müxlis Cənizadə, Nəsir Sadıqzadə, Əjdər Sultanov, Əli Zeynalov, Həsən Turabov, Amaliya Pənahova, Səməndər Rzayev, Hamlet Xanızadə, Mikayıl Mirzə, Fuad Poladov, nəzəriyyəçi alimlər Mikayıl Rəfili, Əli Sultanlı, Feyzulla Qasımzadə, Cəfər Cəfərov, Kərim Kərimov, Məmmədağa Tərlanov, İqrar Əliyev, Əkbər Ağayev, Turan Cavid, Adil Babayev, Cabir Səfərov, Mahmud Allahverdiyev, Ədilə Əliyeva, İnqilab Kərimov və başqaları dərs deyiblər.

Hazırda Universitetdə 13 elmlər doktoru, 27 professor, 88 dosent, 110 fəlsəfə doktoru, 18 Xalq artisti, 2 Xalq rəssamı, 20 Əməkdar incəsənət xadimi, 26 Əməkdar artist, 5 Əməkdar rəssam, 14 Əməkdar müəllim, 11 Əməkdar mədəniyyət işçisi yüksək ixtisaslı kadr hazırlığında iştirak edir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 avqust 2022-ci il tarixli 301 nömrəli qərarı ilə Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusunda yenidən təşkil edilmişdir ki, bu da universitetin institusional müstəqilliyinin və idarəetmə çevikliyinin gücləndirilməsi istiqamətində mühüm mərhələ olmuşdur.

Yazılanlar keçdiyimiz şərəfli yolun qısa xülasəsidir, bu gün isə biz artıq Qara Dəniz Universitetləri şəbəkəsi (BSUN), Türk Dünyası Sənət Universitetləri Birliyi, Türk Universitetləri İttifaqı (TÜRKÜNİB) kimi beynəlxalq şəbəkələrin üzvü kimi respublikada mədəniyyət və incəsənət sahəsində diplomları beynəlxalq aləmdə tanınan universitetik.

Yüzillik inkişaf yolu və formalaşmış yaradıcı məktəb ənənəsi ADMİU-nun 2026–2030-cu illər üçün strateji transformasiya mərhələsinə keçidi üçün möhkəm institusional baza yaradır.

## 1.2. Fəaliyyət istiqamətləri

**Təhsil.** ADMİU çoxpilləli və fasiləsiz təhsil modeli əsasında orta ixtisas, bakalavr, magistr (o cümlədən, MBA), doktorantura, əlavə təhsil proqramları üzrə təhsil xidmətləri göstərir. Universitetdə tədris 3 dildə - Azərbaycan, rus və ingilis dillərində aparılır. Hazırda ADMİU-da **5 fakültə, 20 kafedra fəaliyyət göstərir.** Universitetdə bakalavriat pilləsində 21 ixtisas, 18 ixtisaslaşma, magistr pilləsində 20 ixtisas, 53 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Elmlər doktoru və fəlsəfə doktoru proqramları üzrə 14 nəfər təhsilini davam etdirir.

"E-universitet" layihəsi əsasında ADMİU-da tədrisin təşkili prosesi tamamilə elektronlaşdırılmışdır.

Universitetdə nüfuzlu xarici sənət məktəbləri ilə tələbə və müəllim mübadilə proqramları həyata keçirilir. ADMİU təhsilin keyfiyyətini artırmaq məqsədilə tədris plan və proqramlarının təkmilləşdirilməsinə, tədrisdə müasir texnologiyalardan istifadə və professor-müəllim heyətinin peşə bacarıqlarının artırılmasına xüsusi əhəmiyyət verir.

**Yaradıcılıq.** ADMİU respublikada yeganə ali təhsil ocağıdır ki, mədəniyyət və incəsənətin bütün sahələri üzrə xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə peşəkar

kadrlar hazırlayır.

Xüsusi qabiliyyət tələb edən ixtisasların spesifikliyi nəzərə alınaraq, ADMİU-da professor-müəllim heyəti pedaqoji fəaliyyətlə yanaşı yaradıcılıq-ifa, elmi və tədris-metodiki işlər həyata keçirir. Bu fəaliyyətlərin nəticələri Universitetin Bədii Şurası və Elmi-Metodiki Şurasında müzakirə olunur. Yerinə yetirilmiş yaradıcılıq işləri ixtisasa müvafiq olaraq, baxış, dinləmə formatında nümayiş etdirilir.

**Tədqiqat**. ADMİU-də elmi tədqiqatlar nəzəri kafedralarda həyata keçirilir. Universitetin "Mədəniyyət dünyası" və "Elmi əsərlər" adlı elmi jurnalları fəaliyyət göstərir. Hər iki jurnalın veb-saytı mövcuddur. Universitetdə çalışan alim və tədqiqatçıların elmi əsərləri ERİH+, Web of Science, Scopus kimi nüfuzlu beynəlxalq xülasələndirmə və indeksləmə sisetmlərinə daxil olan nəşrlərdə çap edilir. Tədqiqat potensialının artırılması, elmi fəaliyyətin beynəlxalq mühitdə mövqeyinin gücləndirilməsi və qrant əsaslı tədqiqatların genişləndirilməsi ADMİU-nun prioritet istiqamətlərdəndir.

Universitetdə mədəniyyət və incəsənətlə bağlı elmi ədəbiyyat, dərslik və dərs vəsaitlərinin hazırlanmasına və tərcüməsinə xüsusi önəm verilir.

**Beynəlmiləlləşmə.** İnzibati və professor-müəllim heyətinin, eləcə də tələbələrin akademik mübadilə proqramlarında iştirak səviyyəsi artmaqdadır. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə kadr hazırlayan mədəniyyət və incəsənət yönümlü universitetlərlə ikili diplom və birgə layihələr istiqamətində fəaliyyət gücləndirilib. Beynəlxalq tərəfdaşlıqların institusionallaşdırılması və akademik mobillik mexanizmlərinin formalaşdırılması universitetin prioritet inkişaf istiqamətlərindədir.

**Sosial xidmət**. ADMİU-də fəaliyyət göstərən Tələbə Elmi-Yaradıcılıq Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və digər tələbə təşkilatları hər il müxtəlif sosial məsuliyyət layihələri həyata keçirirlər.

ADMİU inklüziv təhsil prinsiplərinə əsaslanaraq əlilliyi olan şəxslərin və tələbələrin cəmiyyətə inteqrasiyasını dəstəkləyir və bərabər təhsil imkanlarının yaradılması istiqamətində beynəlxalq və respublika miqyaslı tədbirlər və layihələr icra edir. QHT-lərlə əməkdaşlıq çərçivəsində müxtəlif sosial və maarifləndirici təşəbbüslər universitetin sosial həyatının ayrılmaz tərkib hissəsidir.

### 1.3. Resurslar

**İnsan resursları.** Azərbaycanda mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə tanınmış nümayəndələrin əksəriyyəti ADMİU-da fəaliyyət göstərir. Tanınmış aktyor, rejissor, operator, rəssam, dizayner, müğənni və musiqiçilər, teatrşünas və sənətşünaslar ADMİU-da elmi-pedaqoji fəaliyyətə cəlb edilmişdir. Bu, universitetdə akademik biliklə peşəkar yaradıcı təcrübənin sintezini təmin edən mühüm insan kapitalı üstünlüyü yaradır. Universitet, əməkdaşlarının peşəkar inkişafına xüsusi əhəmiyyət verir və bu məqsədlə ilboyu müxtəlif seminarlar, təlimlər təşkil edir. Professor-müəllim heyəti nüfuzlu xarici universitetlərlə təcrübə mübadiləsi proqramlarında iştirak edir. Davamlı ixtisasartırma və beynəlxalq təcrübə mübadiləsi kadr potensialının yenilənməsini təmin edən əsas mexanizmlərdəndir.

**İnformasiya resursları**. ADMİU-nun "www.admiu.edu.az" ünvanlı internet səhifəsi universitetdaxili və kənar istifadəçilər üçün əlçatandır. Rəqəmsal informasiya mühitinin inkişaf etdirilməsi və elektron kommunikasiya kanallarının genişləndirilməsi universitetin

strateji kommunikasiya siyasətinin tərkib hissəsidir.

**Maliyyə resursları**. ADMİU-nun maliyyə resursları, əsasən, aşağıdakı mənbələr hesabına formalaşır:

1) Dövlət sifarişli tələbələr üçün dövlətin ödədiyi təhsil haqları;

2) Ödənişli əsaslarla təhsil alan tələbələrin ödədikləri təhsil haqları;

3) Qanunvericiliklə nəzərdə tutulmuş digər gəlirlər.

Maliyyə dayanıqlığının təmin olunması və alternativ gəlir mənbələrinin diversifikasiyası strateji inkişafın vacib şərtlərindən hesab olunur.

**İnfrastruktur**. ADMİU-nun Bakı şəhərində yerləşən 3 tədris binası, yeməkxanaları, xüsusi avadanlıqlarla təmin olunmuş səhnəli otaqları, kino-televiziya studiyaları, rəngkarlıq, qrafika, dizayn və bədii toxuculuq emalatxanaları var. Universitetin əsas tədris binasında müasir tamaşa zalları və sərgi salonu mövcuddur. Bu infrastruktur yaradıcı tədris prosesinin praktik yönümlü həyata keçirilməsinə imkan verir. 11 iyul 2020-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Bakı Humanitar Kolleci yaradılmışdır. Kollec mədəniyyət, incəsənət və təhsil ixtisasları üzrə subbakalavr səviyyəsi üzrə kadr hazırlığı aparır.

## 1.4. GZİT TƏHLİLİ

| GÜCLÜ TƏRƏFLƏR | ZƏİF TƏRƏFLƏR |
|---|---|
| Respublikada mədəniyyət və incəsənət sahəsində kadr hazırlayan 100 illik təcrübə və ənənələrə malik, ilk və ən nüfuzlu təhsil ocağı olması | Auditoriya çatışmazlığı, kafedraların, tədris otaqlarının, yaradıcılıq studiyaları və emalatxanaların maddi-texniki cəhətdən zəif təchiz olunması |
| Müvafiq sahələr üzrə işəgötürənlərlə qurulan sıx əməkdaşlıq əlaqələri | Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə tədrisin müasir texnoloji standartlara uyğunlaşdırılmasında maddi-texniki bazanın qismən köhnəlməsi və yeni avadanlıq təminatında çatışmazlıqlar |
| Keyfiyyət təminatı və monitorinq sisteminin davamlı fəaliyyəti, monitorinq nəticələrinin qərarvermə prosesinə təsiri | Müasir korporativ idarəetmə elementlərinin və çevik qərarvermə mexanizmlərinin zəif inkişafı |
| Beynəlxalq akkreditasiyadan keçmiş tədris proqramlarının mövcudluğu | Kurikulum daxilində nəzəri və təcrübi komponentlərin balansının optimal səviyyədə qurulmaması |
| Universitetin ixtisaslarına davamlı abituriyent marağı və qəbul planının stabil şəkildə təmin olunması | Tələbə dəstək xidmətlərinin zəif olması |
| Xüsusi qabiliyyət tələb edən ixtisas sahələri üzrə genişspektrli akademik proqramların mövcudluğu | Respublikanın mədəniyyət müəssisələri ilə sistemli strateji tərəfdaşlıq əlaqələrinin məhdudluğu |
| Tədrisin elektron idarəedilməsi və elektron sənəd dövriyyəsi sistemlərinin mövcudluğu | Əcnəbi tələbə kontingentinin sayının azlığı |

| | |
|---|---|
| Professor-müəllim heyəti arasında tanınmış sənət adamlarının və nüfuzlu alimlərin təmsil olunması | Universitetin İT infrastrukturunun müasir tələblərə cavab verməməsi |
| Qara Dəniz Universitetləri şəbəkəsi (BSUN), Türk Dünyası Sənət Universitetləri Birliyi, Türk Universitetləri İttifaqı (TÜRKÜNİB) kimi beynəlxalq şəbəkələrin üzvü olması | İnnovativ təlim metodlarının və interaktiv yanaşmaların sistemli şəkildə tətbiq edilməməsi |
| İnklüziv yanaşmaların tətbiqi | Tədris proqramlarında nəzəri biliklərin üstünlük təşkil etməsi və tələbələrin təcrübi bacarıqlarının inkişaf səviyyəsinin aşağı olması |
| Respublikada ilk və unikal təcrübə olan Ali Rejissorluq Kurslarının təşkili | Tanınmış xarici mütəxəssilərin tədris prosesinə cəlb edilməsi imkanlarının məhdudluğu |
| Sosial şəbəkələrdə aktiv fəaliyyət və geniş auditoriya ilə birbaşa kommunikasiya | Əlavə maliyyə mənbələrinin formalaşdırılması məqsədilə institusional ianə mexanizminin yaradılmaması |
| Yüksək elmi potensiala, müvafiq ixtisaslar üzrə elmi dərəcə və adlara malik akademik heyət | Tələbə yataqxanasının istifadə imkanlarının olmaması |
| Bakalavr və magistr səviyyələri üzrə ikili diplom proqramları | Tədris binalarında tibbi xidmətin qeyri-bərabər təşkili |
| Beynəlxalq və respublika miqyaslı festival, sərgi, nümayiş və müsabiqələrin təşkili | Akademik heyətin davamlı peşəkar inkişafı və ixtisasartırma proqramları üçün ayrılan maliyyə resurslarının məhdudluğu |
| Dövlət əhəmiyyətli mədəniyyət tədbirlərində tərəfdaş qismində iştirak | Akademik heyət və tələbə kontingentinin xarici dil biliyi səviyyəsinin aşağı olması |
| Mədəniyyət və incəsənət sahəsinə dair nadir nüsxələrdən və elektron resurslardan ibarət ixtisaslaşmış zəngin kitabxana fondu | İncəsənət təhsili üzrə vahid metodoloji çərçivənin formalaşdırılmaması |
| Tələbə və müəllimlərin müştərək yaradıcılıq layihələrində iştirakı vasitəsilə incəsənətdə varisliyin təmin olunması | Yüksək elmi və yaradıcılıq nailiyyətləri seçilən əməkdaşların differensial əməkhaqqı ilə stimullaşdırılması mexanizminin tam formalaşmaması |
| Əmək bazarı ilə əlaqələr vasitəsilə tələbələrin istehsalat təcrübəsinin və məzunların məşğulluq imkanlarının genişləndirilməsi | Professor-müəllim heyətinin elmi məqalələrinin nüfuzlu beynəlxalq bazalarda (Scopus, Web of Science) təmsilçilik səviyyəsinin və istinad sayının aşağı olması |
| İncəsənət ixtisasları üzrə əsas dərsliklərin, metodiki vəsaitlərin və tədris proqramlarının hazırlanmasında respublika üzrə liderlik | Universitet daxilində yaradılan intellektual mülkiyyətin (ssenarilər, dizayn layihələri, bədii əsərlər) kommersiya məhsuluna çevrilməsi və patentləşdirilməsi təcrübəsinin yoxluğu |

| | |
|---|---|
| Respublikada məşhur və uğur qazanmış  məzunlar | Məzunların karyera inkişafını mütəmadi izləyən və onların gələcək fəaliyyətini universitetin inkişafına cəlb edən effektiv şəbəkənin yoxluğu |
| Məzunları öz ətrafında birləşməyə imkan verən Məzunlar Assosiasiyasının olması | Ömürboyu təhsil çərçivəsində ödənişli kursların, təlimlərin, yay və qış məktəblərinin azlığı |
| Müvafiq ixtisaslar üzrə 3 dildə pedoqoji təhsil vermə imkanı | Professor-müəllim heyətinin orta yaş göstəricilərinin yüksək olması |
| Dövlət qurumları, qeyri-hökümət təşkilatları və incəsənət müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri | Beynəlxalq və yerli qrant proqramlarına çıxış imkanlarının məhdudluğu |
| Şəffaf idarəetmə mexanizmlərinin mövcudluğu, idarəetmədə bütün maraqlı tərəflərin təmsil olunması | Maliyyə imkanlarının məhdudluğu |
| Elmi fəaliyyətlərin təşviq edilməsi | Yaradıcı ideyaların startap və sahibkarlıq modelinə çevrilməsini dəstəkləyən daxili innovasiya mexanizmlərinin məhdudluğu |

| **İMKANLAR** | **TƏHDİDLƏR** |
|---|---|
| Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə dövlət tərəfindən dəstəklənən yeni layihələrin və əlverişli təhsil mühitinin yaradılması | Ölkədaxili və regional ali təhsil bazarında mədəniyyət və incəsənət profilli ixtisaslar üzrə rəqabətin artması və alternativ təhsil mərkəzlərinin (özəl kurslar, akademiya, studiya, təlim mərkəzləri və s.) çoxalması |
| Xarici tərəfdaş universitetlərin birgə kadr hazırlığı və müştərək təhsil proqramlarına artan marağı | Mədəniyyət və incəsənət sahəsində əmək bazarının tələblərinə uyğun yeni ixtisaslar üzrə kadr hazırlığı aparmaq üçün ali təhsilli mütəxəssislərinin defisiti |
| Beynəlxalq proqramlar və qrant müsabiqələri vasitəsilə əlavə resurslarının əldə edilməsi imkanları | AAK (Ali Attestasiya Komissiyası) tərəfindən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə praktiki fəaliyyətlə məşğul olan yaradıcı şəxslərə elmi adların verilməsi ilə bağlı  məhdudiyyətlər |
| Beynəlxalq və respublika miqyaslı yaradıcılıq layihələri vasitəsilə universitetin nüfuzunun artırılması imkanları | Tələbələrin layihə və startaplarını həyata keçirmələri üçün universitet daxilində sərbəst iş sahələrinin (coworking spaces, açıq emalatxanalar) çatışmazlığı |
| Yaradıcılıq məhsullarının satış bazarına çıxarılması və universitetin intellektual mülkiyyətinin kommersiyalaşdırılması perspektivləri | Qlobal təhsil standartlarında "yaşıl universitet" və davamlı inkişaf tələblərinin artması, lakin köhnə binaların və infrastrukturun bu ekoloji standartlara tam cavab verməməsi |

| | |
|---|---|
| Əcnəbi tələbələrin universitetdə təhsilə cəlb edilməsi üçün əlverişli imkanlar | Beynəlxalq akkreditasiya sertifikatlarının və standartlarının Elm və Təhsil Nazirliyi (ETN) tərəfindən yerli qiymətləndirmə mexanizmlərində tam tanınmaması və ya ekvivalentliyinin müəyyən edilməməsi |
| Müasir təhsil trendlərinə uyğun olaraq yeni xidmət bazarlarına və hədəf auditoriyalarına çıxış imkanları | Əmək bazarında yeni ixtisaslar üzrə rəqabətədavamlı mütəxəssislərin universitet mühitinə deyil, daha yüksək gəlirli özəl sektora yönəlməsi |
| İnnovativ tədris metodları və üsullarının tətbiqi vasitəsilə təhsilin cəlbediciliyinin yüksəldilməsi; | Süni intellektin vizual sənət, dizayn və musiqi sahəsində insan əməyini qismən əvəzləməsi nəticəsində bəzi ənənəvi ixtisaslara olan tələbin azalması |
| Texniki və biznes yönümlü universitetlərlə tərəfdaşlıq layihələrinin və müştərək proqramların qurulması imkanları | İstedadlı gənclərin incəsənət təhsili üçün xarici ölkələri və ya daha yüksək qazanc vəd edən texnoloji sahələri seçməsi |
| Distant (onlayn) təhsil texnologiyalarının tətbiqi ilə daha geniş auditoriyaya çıxış imkanı | Yaradıcı sektorun (reklam agentlikləri, prodakşnlar) ali təhsil diplomundan çox, qısamüddətli intensiv kursların sertifikatlarına və portfoliolara üstünlük verməsi |
| Əmək bazarının dəyişən tələblərinin monitorinqi əsasında təhsil proqramlarının məzmununun müntəzəm yenilənməsi və təhsil nəticələrinin optimallaşdırılması | Klassik incəsənətə marağın rəqəmsal əyləncə platformaları tərəfindən sıxışdırılması və bu sahədə kadr hazırlığının aktuallığını itirməsi riski |
| Yerli və xarici universitetlərlə strateji tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsi və institusional əməkdaşlıq imkanları | Beynəlxalq film, teatr və dizayn sənayesində tətbiq edilən yeni standartlara uyğunlaşa bilməmək nəticəsində məzunların xaricdə iş tapmaq imkanlarının məhdudlaşması |
| Beynəlxalq mübadilə proqramları (Erasmus+, Mevlana və s.) vasitəsilə əcnəbi tələbə sayının artırılması | Regionlarda mədəniyyət müəssisələrində işləmək istəyən məzunlar üçün yaşayış və sosial təminatın məhdudluğu nəticəsində məşğulluq imkanlarının azalması |
| Xarici dilli proqramların və ixtisasların sayının artırılması ilə xarici ölkələrdən tələbələrin cəlb edilməsi | Geosiyasi və iqtisadi faktorlar nəticəsində xarici tələbələrin ölkəyə cəlb olunmasında azalma riski |
| "Creative Azerbaijan" ekosistemində liderlik: Ölkədə yaradıcı sənayelərin (kino, dizayn, oyun sənayesi) inkişafı üzrə dövlət strategiyası çərçivəsində ADMİU-nun bu sahənin əsas beyin mərkəzinə və kadr bankına çevrilməsi imkanı | Qlobal onlayn kurs platformalarının (micro-credential modeli) klassik diplom modelinə alternativ kimi güclənməsi |
| Media holdinqlər, prodüser mərkəzləri və teatr studiyaları ilə birbaşa əməkdaşlıq | Ali təhsil sistemində artan hesabatlılıq və normativ tələblərin akademik və |

| | |
|---|---|
| edərək, tələbələrin əmək bazarına inteqrasiyası | yaradıcı fəaliyyət üçün vaxt və resursları məhdudlaşdırması riski |
| Bakı və digər şəhərlərin mədəni simasının formalaşdırılmasında, urbanistik dizayn və ictimai art-layihələrdə universitetin əsas icraçı tərəfdaş kimi çıxış etməsi | Yüksək istedadlı tələbə və müəllimlərin daha geniş imkan və resurslara malik xarici mədəniyyət mərkəzlərinə və ya beynəlxalq sənaye platformalarına yönəlməsi nəticəsində intellektual və yaradıcı kapitalın zəifləməsi ehtimalı |

## PESTEL analizi

| | | | | | |
|---|---|---|---|---|---|
| **P** Political **Siyasi amillər** | **Dövlət siyasəti:** Dövlətin ali təhsil və mədəniyyət sahəsində həyata keçirdiyi siyasət və islahatlar (“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, “Azərbaycan Mədəniyyəti – 2040” və s.); | **Beynəlxalq əlaqələr:** Xarici universitetlərlə birgə əməkdaşlıq və beynəlmiləlləşmə proseslərinin həyata keçirilməsində dövlət prioritetləri ilə ali təhsil müəssisələrinin strateji hədəfləri arasında mümkün uyğunsuzluqlar; | **Hökümət dəstəyi:** Xüsusi qabiliyyət tələb edən ali təhsil müəssisələrinə dövlət siyasəti çərçivəsində göstərilən institusional və maliyyə dəstəyinin həcmi və davamlılığı. | **Geosiyasi proses:** Geosiyasi proseslərin və beynəlxalq münasibətlərin akademik əməkdaşlıq imkanlarına təsiri. | |
| **E** Economic **İqtisadi amillər** | **İqtisadi vəziyyət:** Ölkənin makroiqtisadi vəziyyətinin ali təhsil müəssisələrinin maliyyə dayanıqlılığına təsiri; | **Dövlət-özəl tərəfdaşlığı:** Dövlət–özəl tərəfdaşlıq mexanizmlərinin inkişaf səviyyəsi və mədəniyyət sahəsinə investisiya cəlbetmə imkanları; | **Əmək bazarı:** Əmək bazarında yaradıcı sənayelər üzrə yüksəkixtisaslı mütəxəssislərə olan tələbatın artan dinamikası; | **Yaradıcılığın kommersiyalaşdırılması:** Rəqəmsal iqtisadiyyatın inkişafı fonunda yaradıcılıq məhsullarının onlayn platformalar vasitəsilə kommersiyalaşdırılması imkanlarının genişlənməsi; | **Təhsil haqqı:** Təhsil haqqı siyasətinin ali təhsil müəssisələrinin maliyyə dayanıqlılığına, rəqabət mühitinə təsiri; |
| **S** Social **Sosial amillər** | **Demoqrafik dəyişikliklər:** Demoqrafik dinamika və ali təhsilə qəbul potensialına təsir edən sosial tendensiyalar; | **İxtisas seçimi:** Gənclər arasında yaradıcılıq sahələrinə və incəsənət yönümlü ali təhsilə marağın dinamikası; | **Sosial gözləntilər:** Ali təhsil müəssisələrinin ictimai reputasiyasının və sosial etimad göstəricilərinin tələbə seçimlərinə təsiri; | **Auditoriya:** Cəmiyyətin mədəniyyət və yaradıcı sənaye məhsullarına olan tələbatının dəyişməsi və yeni auditoriya davranış modellərinin formalaşması. | |
| **T** Technology **Texnoloji amillər** | **Texnoloji yeniliklər və infrastruktur:** Rəqəmsal istehsal və səhnə texnologiyalarının inkişaf tempi; Müxtəlif yaradıcılıq istiqamətləri üzrə müasir texniki avadanlıqların və laboratoriya mühitinin inkişaf səviyyəsi. | **Rəqəmsallaşma və LMS sistemləri:** Ali təhsil mühitində rəqəmsallaşma meyilləri və LMS sistemlərinin tədris, qiymətləndirmə və idarəetmə sistemlərinə tətbiqi; | **Süni intellekt texnologiyaları:** Süni intellekt texnologiyalarının təhsil və yaradıcılıq proseslərinə sürətli inteqrasiyası və tədris modellərinə təsiri; | **Onlayn təhsil:** Rəqəmsal platformalar vasitəsilə məsafədən və hibrid tədris imkanlarının genişlənməsi, təhsil xidmətlərinin əlçatanlığının artması; | **Tədqiqat və İnnovasiya:** Elmi-tədqiqat fəaliyyəti, yaradıcı sənaye istiqamətləri üzrə innovativ layihələr, tətbiqi nəticələrin istehsalata və bazara inteqrasiyası; |
| **E** Environmental **Ekoloji amillər** | **Ətraf mühit və sosial təşəbbüslər:** İqlim dəyişiklikləri ilə bağlı beynəlxalq proseslərin (COP sammitləri, BMT-nin iqlim gündəliyi və s.) ali təhsil sektorunda ekoloji məsuliyyətə təsiri; Ekoloji məsuliyyət və dayanıqlı inkişaf istiqamətində institusional və fəaliyyət və layihələr; | **Yaşıl texnologiyalar:** Enerji səmərəliliyi və yaşıl texnologiyaların tətbiqi ilə resursların optimallaşdırılması üzrə normativ tələblərin sərtləşməsi; | **Ekoloji siyasətlər:** Dövlət və beynəlxalq səviyyədə yaşıl transformasiya siyasətlərinin ali təhsil müəssisələrinin infrastruktur və idarəetmə modellərinə təsiri; | **Dayanıqlı İnkişaf Məqsədləri (SDG):** Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) ali təhsil siyasətinə təsiri və onların tədris proqramlarına, elmi tədqiqatlara və sosial təşəbbüslərə inteqrasiyası; | **Ekoloji maarifləndirmə:** Ekoloji maarifləndirmə və iqlim savadlılığı ilə bağlı qlobal çağırışların ali təhsil sisteminə təsiri; |
| **L** Legal **Hüquqi amillər** | **Təhsil qanunvericiliyi və rəqəmsal etika:** Təhsil və mədəniyyət haqqında müvafiq hüquqi-normativ sənədlərin ali təhsil müəssisəsinin fəaliyyətinə təsiri; Ali təhsil sektorunda süni intellekt texnologiyalarının istifadəsi ilə bağlı formalaşmaqda olan hüquqi və etik çərçivələr; | **Hüquqi status və tənzimləmə çərçivəsi:** Xüsusi qabiliyyət tələb edən ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın formalaşma və inkişaf səviyyəsi; | **Təhsil standartları və akademik miqrasiya:** Əmək bazarında yaradıcı sənayelər üzrə yüksəkixtisaslı mütəxəssislərə olan tələbatın artan dinamikası; Əcnəbi tələbə və qonaq müəllimlərin hüquqi statusunun tənzimlənməsi. | **Akkreditasiya və keyfiyyət təminatı:** Yerli və beynəlxalq akkreditasiya və keyfiyyət təminatı üzrə normativ tələblər; | **Müəllif hüquqları:** Yaradıcılıq fəaliyyətinin əqli mülkiyyət çərçivəsində hüquqi qorunması; |

## II. MİSSİYA, VİZYON VƏ ƏSAS DƏYƏRLƏR

### 2.1. MİSSİYA

Təlimin qabaqcıl innovasiya texnologiyalarını tədris prosesi ilə əlaqələndirməklə mədəniyyət və incəsənət sahələri üzrə respublikada və onun hüdudlarından kənarda tanınan, milli-mənəvi dəyərləri qoruyub saxlamaqla müasir dövrün tələblərinə cavab verən rəqabətədavamlı yüksəkixtisaslı peşəkar kadr hazırlığı sistemi formalaşdırmaq.

### 2.2. VİZYON

Respublikada mədəniyyət və incəsənət sahələri üzrə ali məktəblər arasında liderliyə nail olmaq, ölkəmizdə yaradıcı sənayenin inkişafına töhfə verən yüksək peşəkarlığa malik mütəxəssislər hazırlayaraq bu sahədə beynəlxalq səviyyəli innovativ ali təhsil və yaradıcılıq platformasına çevrilmək.

### 2.3. ƏSAS DƏYƏRLƏR

**Kollegiallıq:** Obyektivlik, şəffaflıq, səmimilik və qarşılıqlı etimad prinsiplərinə söykənərək akademik və inzibati əməkdaşlıq mühitinin formalaşdırılması. Müasir tərəfdaşlıq şəbəkələri və innovativ texnologiyalar əsasında institusional əməkdaşlığı inkişaf etdirmək.

**Seçim azadlığı:** Müasirliyə, innovativliyə, kollektiv və fərdi yaradıcılığa əsaslanan bilik qazanmaq üçün ideya azadlığını dəstəkləmək. Yaradıcı düşüncə və mədəni ifadə azadlığını təşviq edən fərqli ideya və təşəbbüsləri dəstəkləyən akademik mühit yaratmaq.

**Mükəmməllik:** Müasir idarəetmə və tədris standartlarına əsaslanan, yaradıcı və elmi fəaliyyətin davamlı inkişafını təmin edən nəticəyönümlü yanaşma.

**Milli mədəni irs**: Azərbaycanın milli-mədəni kimliyini qoruyan, inkişaf etdirən və beynəlxalq müstəvidə təqdim edən yanaşmanı prioritetləşdirmək.

**İnklüzivlik və müxtəliflik:** Sosial, etnik və mədəni müxtəlifliyi dəyər kimi qəbul edən bərabər imkanlar və multikultural dialoq mühiti yaratmaq.

ADMİU-nun Strateji İnkişaf Proqramı Dövlət Strategiyasının prioritetlərinə uyğun hazırlanmış və universitetin institusional inkişaf məqsədləri ilə uzlaşdırılmışdır.

## III. İNKİŞAF STRATEGİYASININ ƏSASLARI

### 3.1. Hüquqi-normativ əsaslar

1. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş *“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu;*

2. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş *“Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası;*
3. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş *“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası;”*
4. Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş *“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi üzrə Fəaliyyət Planı;*
5. Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2013-cü il tarixli Fərmanı ilə tətbiq edilmiş *“Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu;*
6. Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli, 273 nömrəli Sərəncamı ilə təsdiq edilmiş *“Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası;”*
7. Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş *“Azərbaycan Mədəniyyəti – 2040” Konsepsiyası.*

Universitet öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə və təsdiq edilmiş Nizamnaməsinə uyğun olaraq həyata keçirir.

### 3.2. Strateji İnkişaf Proqramının konseptual prinsipləri

Azərbaycan Respublikası Prezidetinin, Nazirlər Kabinetinin, Elm və Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinin müddəalarına əsaslanaraq, ADMİU-nun Strateji İnkişaf Proqramının konseptual prinsipləri aşağıdakı kimi müəyyən edilir;

- Milli və ümumbəşəri maddi-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsində mədəniyyətin aparıcı rolunun tanınması;
- Təhsil, elm və yaradıcılıq-ifa sahələrində universitetin institusional potensialının gücləndirilməsi və mədəniyyət yönümlü ali təhsil müəssisələri arasında lider mövqeyinin təmin edilməsi;
- Qədim maddi-mədəni və mənəvi irsin, dinamik inkişafda olan müasir mədəniyyətin təhsil vasitəsi ilə gənc nəslə ötürülməsi və yaradıcı düşüncənin formalaşdırılması.

### 3.3. Prioritetlər

ADMİU-nun 2026-2030-cu illər üzrə Strateji İnkişaf Proqramının prioritetləri aşağıdakılardan ibarətdir:

- Təhsil prosesinin milli və beynəlxalq keyfiyyət standartlarına uyğun olaraq modernləşdirilməsi və kurikulumların kompetensiya əsaslı model üzrə yenilənməsi;
- Elmi-tədqiqat fəaliyyətinin nəticəyönümlü inkişafı, elmi nəticələrin tədris prosesinə inteqrasiyası və Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafına xidmət edən tədqiqatların təşviqi;
- Universitetin mədəniyyət və incəsənət sahəsində beynəlxalq təhsil və elm məkanına inteqrasiyası;

- İnsan, maliyyə, informasiya və infrastruktur resurslarının davamlı inkişafı və effektiv idarə olunması;
- Yerli və beynəlxalq proqram və layihələrdə iştirakın təmin olunması;
- Tələbəyönümlü akademik və sosial mühitin formalaşdırılması və təhsilin keyfiyyətinin yüksəldilməsi.

### 3.4. 2021-2025-ci illər üçün ADMİU-nun Strateji İnkişaf Planının dəyərləndirilməsi

Təhsil prosesinin intensiv olaraq müasirləşdirilməsi ilə xarakterizə olunan 2021-2025-ci illər ərzində ADMİU-da aşağıdakı strateji məsələlər həll edilmişdir:

- Kafedralar arası birgə yaradıcılıq-ifa işlərinin aparılması təmin olunmuşdur;
- İmtahanları zamanı daxili və ictimai (valideyn) nəzarətin effektiv təşkili nəticəsində şəffaflığa nail olunmuşdur;
- Tədris planlarının monitorinqi keçirilmiş və varislik təmin edilməklə müasirləşdirilmişdir;
- Tədrisin səmərə və keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar struktur dəyişiklikləri edilmiş, yaxın ixtisaslar üzrə kadr hazırlığı aparan kafedralar birləşdirilmişdir;
- Laborant, kitabxana işçiləri və digər əməkdaşların attestasiyası keçirilmişdir;
- Müasir avadanlıqlarla təchiz edilmiş "Operator işi" tədris-laboratoriyası yaradılmış, tədris prosesinin səviyyəsinin yüksəldilməsi məqsədilə tələbələrin istifadəsi üçün musiqi alətləri alınmışdır;
- Xarici ölkələrin müvafiq ixtisaslar üzrə təhsil verən ali məktəblərinin professor-müəllim heyəti və tələbələri ilə açıq dərslər, ustad dərsləri, elmi seminar və konfranslar keçilmişdir;
- Yeni ixtisaslar üzrə kadr hazırlığına başlanılmışdır;
- Xaricdə və respublikada təhsil almış istedadlı gənc kadrlar ADMİU-da pedaqoji və inzibati fəaliyyətə dəvət edilmişlər;
- ADMİU-da tyutor (akademik məsləhətçi) xidmətinin təkmilləşdirilməsi məqsədilə davamlı təlim kursları təşkil olunmuşdur.
- 2021-2025-ci illər üçün Strateji İnkişaf Planındakı icrası ləngiyən bir sıra məsələlər növbəti Strateji İnkişaf Proqramına daxil edilmişdir. 2021-2025-ci illər üzrə ADMİU-nun Stratji İnkişaf Planında 7 strateji istiqamət üzrə cəmi 46 hədəf müəyyən olunub. Onlardan 24-ü (52,1 %) yerinə yetirilib, 15-i (32,6 %) prosesdədir, 7-si (15 %) isə yerinə yetirilməyib.

### 3.5. Strateji İnkişaf Proqramının məqsəd və vəzifələri

Strateji İnkişaf Proqramının əsas məqsədi müasir beynəlxalq tələblərə cavab verən keyfiyyətli təhsil vasitəsi ilə mədəniyyət və incəsənəti inkişaf etdirmək bacarığına malik milli kadrların yetişdirilməsidir.

- Universitet təhsilinin Avropa elm və təhsil məkanına inteqrasiyası və təhsilin məzmununun Boloniya prosesinin prinsiplərinə uyğun qurulması;
- Universitetin rəqabət qabiliyyətliliyinin təmin edilməsi;

- Müasir dövrdə mədəniyyət və incəsənətin inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara olan tələbatın ödənilməsi;
- Müasir tələblərə cavab verən fasiləsiz təhsil imkanlarının təmin edilməsi üçün şəraitin yaradılması;
- ADMİU-nun bazasında təhsilin ardıcıllığı baxımından kollec-universitet (subbakalavr-bakalavr-magistratura-doktorantura) təhsil kompleksinin formalaşdırılması;

**Bunun üçün aşağıdakı vəzifələrin həll edilməsi tələb olunur:**

- Əldə etdikləri bilik, bacarıq və vərdişləri tətbiq etməyi bacaran, mədəniyyət və incəsənətin inkişafına öz töhfəsini verə bilən, daima öz üzərində çalışan və ixtisas səviyyəsini artıran, cəmiyyətdə baş verən dəyişikliklərə və müasir tələbatlara çevik reaksiya verən mədəniyyət və incəsənət sahələri üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması;
- Cəmiyyətin və şəxsiyyətin tələbatlarına uyğun, yüksək keyfiyyətli təlim və tədris prosesinin təmin edilməsi;
- Tədris prosesinin və təhsil proqramlarının müasir təhsilin tələblərinə müvafiq yenilənməsi və təkmilləşdirilməsi sisteminin formalaşdırılması;
- Universitetin beynəlxalq təhsil sisteminə, o cümlədən Avropa Vahid Təhsil Məkanına inteqrasiya olması;
- Respublikanın və xarici ölkələrin mədəniyyət və incəsənət sahələri üzrə kadr hazırlığı aparan ali məktəbləri ilə əlaqələrin genişləndirilməsi;
- Elm, təhsil və yaradıcılıq sahələrində məhsuldar beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi.

## 3.6. ADMİU-nun 2026-2030-cu illər üzrə STRATEJİ İNKİŞAF PROQRAMI

| |
|---|
| **Birinci strateji istiqamət: AKADEMİK MÜKƏMMƏLLİK** |
| **Məqsəd 1: Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması** |
| **HƏDƏFLƏR** |
| • Müasir tələblərə cavab verən, bacarıq və səriştə yönümlü təhsil proqramlarının hazırlanması |
| • Ömürboyu təhsil konsepsiyasının reallaşdırılması üçün təhsil proqramlarında varisliyin təmin edilməsi |
| • Ali təhsilin bakalavr və magistr səviyyələrində nüfuzlu xarici və yerli təhsil müəssisələri ilə ikili diplom proqramları istiqamətində davamlı işlərin aparılması |
| • Əmək bazarının tələbatı nəzərə alınaraq beynəlxalq təsnifata uyğun istiqamət və ixtisaslar üzrə beynəlxalq standartlar səviyyəsində kadr hazırlığının həyata keçirilməsi |
| • Biliyin qiymətləndirmə meyarlarının xüsusi qabiliyyət tələb edən ixtisaslara və müvafiq fənlərə görə təkmilləşdirilməsi |
| • İxtisas üzrə təhsil standartları və tədris planlarının işlənilməsində işəgötürənlərlə əməkdaşlıq təcrübəsinin tətbiq edilməsi |

| |
|---|
| • Dövlət Təhsil Standartlarının yüksək elmi-pedaqoji səviyyədə icrasını təmin etmək məqsədilə tədris-metodiki və elmi ədəbiyyatın keyfiyyət və kəmiyyət göstəricilərinin yüksəldilməsi |
| • İşəgötürənlərin maraqlı tərəf kimi təhsil prosesində təmsilçilik mexanizmlərinin tətbiq edilməsi |
| • Təhsil imkanlarının hər kəs üçün əlçatanlığının təmin edilməsi və bütün təhsil səviyyələrində inklüziv təhsilin genişləndirilməsi |
| • Universitetin infrastrukturunun və tədris prosesinin "Yaşıl Kampus" konsepsiyasının prinsiplərinə uyğunlaşdırılması vasitəsilə ekoloji, sosial və mədəni sahədə dayanıqlı inkişafın təmin edilməsi |
| • Tədris proqramlarının və infrastrukturun inklüziv standartlara uyğunlaşdırılması vasitəsilə bütün tələbələr üçün bərabər yaradıcılıq və özünüifadə imkanlarının yaradılması |
| • Professor-müəllim heyətinin akademik bacarıqlarının təkmilləşdirilməsi |
| • Tədris prosesində innovativ və tələbəyönümlü pedaqoji modellərin sistemli tətbiqi |
| • Kurikulumların nəzəri və praktiki komponentlərinin inteqrativ və kompetensiya əsaslı model üzrə yenidən strukturlaşdırılması |
| **Məqsəd 2: Universitetin institusional nüfuzunun, rəqabət qabiliyyətinin və sosial təsirinin gücləndirilməsi** |
| **HƏDƏFLƏR** |
| • Universitetin institusional imicinin və brend mövqeyinin gücləndirilməsi istiqamətində sistemli kommunikasiya və təşviqat mexanizmlərinin formalaşdırılması |
| • Universitetin yerli və beynəlxalq miqyaslı sosial layihələrdə iştirakı |
| • KİV-də ADMİU-nun fəaliyyətinin sistemli və məqsədyönlü şəkildə işıqlandırılmasının təmin edilməsi |
| • Ölkənin nüfuzlu elm və təhsil müəssisələri, yaradıcılıq birlikləri, dövlət və ictimai qurumlarla, özəl müəssisələrlə əməkdaşlıq əlaqələrinin qurulması, müştərək sosial layihələrin sayının artırılması |
| • Sosial və ekoloji layihələrdə universitetin professor-müəllim heyətinin və tələbələrin iştirakına şəraitin yaradılması |
| • Akademik heyət və tədqiqatçılar tərəfindən sosioloji tədqiqatların aparılması və nəticələrin ictimai qərarvermə və maarifləndirmə proseslərinə inteqrasiyası |
| • Beynəlxalq standartlara uyğun müasir dərsliklərin, dərs vəsaitlərinin hazırlanması və tədris-metodiki təminatın gücləndirilməsi istiqamətində ardıcıl fəaliyyətlərin həyata keçirilməsi |
| • Universitetin rəqabət qabiliyyətinin artırılması və beynəlxalq standartlara uyğunlaşması məqsədilə təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi |
| • Dayanıqlı İnkişaf Məqsədlərinin tədris proqramlarına, elmi tədqiqatlara və sosial təşəbbüslərə inteqrasiyası üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi |
| • Universitetdə kadr hazırlığı aparılan ixtisaslar üzrə təhsilin cəlbediciliyini artırmağa yönəlmiş sistemli mexanizmlərin formalaşdırılması |
| • Tələbə və məzunların yaradıcılıq potensialının reallaşdırılması və məşğulluq imkanlarının artırılması məqsədilə dövlət qurumları və özəl müəssisələrlə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi |
| • Universitetin təhsil, tədqiqat və yaradıcılıq fəaliyyətinin inkişafı məqsədilə dövlət qurumları və özəl sektor subyektləri ilə institusional əməkdaşlıq mexanizmlərinin formalaşdırılması və genişləndirilməsi |

| |
|---|
| **İkinci strateji istiqamət: TƏDQİQAT VƏ YARADICILIQ** |
| **Məqsəd 1: Elmi-tədqiqat fəaliyyətinin keyfiyyətinin və beynəlxalq nüfuzunun artırılması** |
| **HƏDƏFLƏR** |
| • ADMİU-nun elmi nəşrlərinin beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil edilməsi istiqamətində işlərin görülməsi |
| • Elmi məhsuldarlıq üzrə motivasiya sisteminin gücləndirilməsi, Beynəlxalq indeksli jurnallarda nəşrlər üçün differensial mükafat sisteminin yaradılması |
| • Beynəlxalq impakt faktorlu jurnallarda kollektiv müəllif məqalələrinin nəşr edilməsinin təşviqi |
| • Açıq məlumat bazalarının yaradılması üçün elmi-tədqiqat işlərinin axtarış və indeksləşmə üçün DOI (Rəqəmsal Obyektin İdentifikatoru) sisteminə inteqrasiyası |
| • Akademik heyətin elmi məhsuldarlığının və beynəlxalq tədqiqat mühitinə inteqrasiyasının artırılması məqsədilə uzunmüddətli elmi ezamiyyət mexanizmlərinin tətbiqi, əməkdaşların xarici universitet və elmi-tədqiqat mərkəzlərində birbaşa tədqiqat aparmasına şəraitin yaradılması |
| **Məqsəd 2: Yaradıcılıq fəaliyyətinin və tələbə potensialının inkişaf etdirilməsi** |
| **HƏDƏFLƏR** |
| • Təhsilalanların bacarıq, qabiliyyət və istedadlarını üzə çıxarmağa şərait yaradan festival, sərgi, müsabiqə və konfranslara maraqlı tərəflərin cəlb olunması |
| • Tərəfdaş qurumlarla birlikdə Universitetdə ölkənin elmi, mədəni, sosial-iqtisadi problemlərinə həsr olunmuş tədbirlərin təşkili |
| • Yaradıcı platformaların, laboratoriyaların və eksperimental layihələrin təşviqi |
| • Yaradıcılıq fəaliyyətinin sənaye və mədəniyyət sektoruna inteqrasiyasının gücləndirilməsi |
| • Akademik heyətin inkişafı, beynəlxalq tədqiqat mühitinə inteqrasiyasının gücləndirilməsi məqsədilə uzunmüddətli yaradıcılıq məzuniyyəti mexanizmlərinin tətbiqi |
| **Üçüncü strateji istiqamət: BEYNƏLMİLƏLLƏŞMƏ** |
| **Məqsəd 1: Beynəlxalq təhsil və elmi əməkdaşlığın genişləndirilməsi** |
| **HƏDƏFLƏR** |
| • Beynəlxalq elmi-tədqiqat, təhsil və yaradıcılıq proqramlarının (layihələrin) kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi |
| • Beynəlxalq elmi-tədqiqat, təhsil və yaradıcılıq proqramlarında (layihələrdə) iştirak edən professor-müəllim heyətinin, tədqiqatçıların və tələbələrin sayının artırılması |
| • Xarici universitetlərdə təcrübənin təşviqi |
| • Beynəlxalq Qış və Yay Məktəblərinin təşkili |
| • Xarici tərəfdaş universitetlərlə birgə keçirilən beynəlxalq konfrans, seminar, simpozium, forum, festival və s. tədbirlərin sayının artırılması |
| **Məqsəd 2: Akademik mobilliyin və beynəlxalq təhsil mühitinin inkişafı** |
| **HƏDƏFLƏR** |
| • Əcnəbi tələbələrin sayının artırılması |
| • Xarici dil biliyinə malik elmi-pedaqoji və inzibati kadrların cəlb edilməsi |
| • Beynəlxalq nüfuza malik universitetlər siyahısına daxil olan ali təhsil müəssisələri ilə ikili diplom proqramlarının və orada iştirak edən tələbələrin sayının artırılması |
| • Universitetin beynəlmiləlləşmə siyasətinin gücləndirilməsi məqsədilə beynəlxalq tərəfdaş universitetet nümayəndələrinin və xarici tələbələrin iştirakı |

| |
|---|
| ilə Beynəlxalq Gün ("International Day") platformasının yaradılması və davamlı təşkili |
| • Tərəfdarlıq əlaqələrində üçtərəfli əməkdaşlıq formatına yönəlmək (iki Universitet (ADMİU və xarici ATM) + prioritet istiqamətli təcrübə bazası) |
| • Universitetin professor-müəllim heyətinin ölkə xaricində keçirilən mədəni və elmi tədbirlərdə iştirakının təmin edilməsi |
| **Məqsəd 3: Universitetin qlobal reytinq göstəricilərinin yüksəldilməsi və beynəlxalq nüfuzunun artırılması** |
| **HƏDƏFLƏR** |
| • Beynəlxalq reytinq sıralamasında yer almaq: Dünya universitetlərinin reytinqini müəyyən edən Times Higher Education, Quacquarelli Symonds World University Ranking QS və başqa reytinq sistemlərinə müraciət |
| • Beynəlxalq universitet birliklərinə, təşkilatlara üzv olmaq, onların təcrübələrindən istifadə etmək, təhsil, elm, yaradıcılıq, həmçinin sosial istiqamətli müştərək layihələrdə iştrak |
| • QS Subject Ranking üzrə incəsənət istiqamətlərində reytinq meyarlarına uyğunluq göstəricilərini təmin etmək və ilkin qiymətləndirmə mərhələsinə daxil olmaq |
| **Dördüncü strateji istiqamət: İDARƏETMƏ VƏ MALİYYƏLƏŞMƏ** |
| **Məqsəd 1: İnsan kapitalının gücləndirilməsi və peşəkar inkişafın təmin edilməsi** |
| **HƏDƏFLƏR** |
| • Xaricdə və respublikada təhsil almış istedadlı gənc məzunların, tanınmış mədəniyyət və incəsənət xadimlərinin, mütəxəssislərin Universitetdə fəaliyyətə cəlb edilməsi |
| • Xarici ölkələrin təhsil müəssisələrində stajkeçmə, ixtisasartırma, magistr və doktorant hazırlığı yolu ilə professor-müəllim heyətinin təkmilləşdirilməsi |
| • Professor-müəllim heyəti və inzibati heyət üçün mütəmadi təlimlər, ixtisasartırma, stajkeçmə və kadrların yenidən hazırlanması kimi əlavə təhsil imkanları yaratmaqla professional inkişafın təmin edilməsi |
| • Pedaqoji heyətin fəaliyyətinin illik keyfiyyət göstəriciləri əsasında qiymətləndirilməsi və nəticələrə uyğun differensial əməkhaqqı sisteminin tətbiqi |
| • Professor-müəllim heyəti və tələbələrdə sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi. Startap ideyalarının reallaşdırılmasının dəstəklənməsi və müxtəlif müsabiqələrdə iştirak etməyə təşviqi |
| • Tələbələrin peşəkar əmək fəaliyyətinə hazırlanması məqsədilə "Karyera planlanması" kurslarının həyata keçirilməsi |
| • Universitetin profil və istiqamətinə uyğun əmək bazarı subyektlərinin cari və gələcək tələblərinin sistemli təhlili və gələcək tendensiyaların proqnozlaşdırılması |
| • Akademik heyətin nəsillərarası balansının təmin edilməsi və gənc elmi-pedaqoji kadrların sistemli şəkildə cəlb olunması |
| **Məqsəd 2: Effektiv və şəffaf idarəetmə modelinin formalaşdırılması** |
| **HƏDƏFLƏR** |
| • Müasir korporativ idarəetmə prinsiplərinə əsaslanan, şəffaflıq, hesabatlılıq və nəticəyönümlülük meyarları ilə işləyən çevik qərarvermə sisteminin formalaşdırılması |
| • İdarəetmənin təkmilləşdirilməsi və səmərəli idarəetmə formalarının təmin edilməsi məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla struktur islahatlarının aparılması |
| • Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi |

| |
|---|
| • Tədrisin idarə edilməsində müvafiq kompüter proqramlarının tətbiqi. Tədris prosesinin planlaşdırılması, idarə olunması, izlənməsi və qiymətləndirilməsi üçün rəqəmsal platforma qurulması |
| • Tədris prosesinin təşkili ilə bağlı məmnunluğun davamlı ölçülməsi və nəticələrin keyfiyyətli tədris və idarəetmə qərarlarında istifadəsi |
| • Xüsusi qabiliyyət tələb edən ixtisaslarda təhsil üzrə vahid metodoloji çərçivənin formalaşdırılmasına dair fəaliyyətlər |
| • Himayəçilər Şurasının funksiyalarının optimallaşdırılması və universitetin idarəetmə sisteminə inteqrasiyası |
| • Xüsusi qabiliyyət tələb edən ixtisaslarda təhsil nəticələrinin təhlili və ictimai dəyərləndirilməsini gücləndirmək məqsədilə Bədii Şuranın fəaliyyətinin genişləndirilməsi və təkmilləşdirilməsi |
| • Universitetdə Davamlı İnkişaf Mərkəzinin yaradılması |
| • Məzunlarla davamlı və nəticəyönümlü əməkdaşlığın gücləndirilməsi üçün Məzunlar Assosiasiyasının əhatə dairəsinin genişləndirilməsi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi |
| **Məqsəd 3: Maliyyə dayanıqlığının və sahibkarlıq potensialının artırılması** |
| **HƏDƏFLƏR** |
| • Universitetin profil və fəaliyyət istiqamətinə uyğun təsərrüfat hesablı müəssisələrin təsis edilməsi və onların fəaliyyətindən əldə edilən vəsaitin ADMİU-nun inkişafına yönəldilməsi |
| • Universitetin profilinə uyğun ödənişli əsaslarla həyata keçirilən ixtisasartırma, məsləhət-konsaltinq, teatr-konsert, videoçəkiliş, dizayn, turizm və s. xidmətlər şəbəkəsinin yaradılması |
| • Müvafiq ixtisaslar üzrə kadr hazırlığının əmək bazarı nümayəndələri tərəfindən maliyyələşdirilməsi mexanizmlərinin yaradılması |
| • Universitetin özünümaliyyələşmə imkanlarının genişləndirilməsi məqsədilə rəqəmsal kommersiya (e-commerce) ekosisteminin formalaşdırılması |
| • Alternativ maliyyə mənbələrinin cəlbi üçün məzunlar, tərəfdaş qurumlar və yaradıcı sənaye subyektləri ilə əməkdaşlıq əsasında dayanıqlı institusional ianə və fond mexanizmlərinin yaradılması |
| • Sahibkarlığın əsasları və biznesə girişlə bağlı təlimlərin keçirilməsi |
| • Respublika və beynəlxalq elm, təhsil və mədəniyyət fondlarının qrant layihələrində Universitet əməkdaşlarının fəal iştirakının təmin edilməsi |
| • Xüsusi qabiliyyət, magistratura hazırlığı və müvafiq ixtisaslar üzrə ödənişli kursların təşkili |
| **Məqsəd 4: İnfrastruktur və maddi-texniki bazanın modernləşdirilməsi** |
| **HƏDƏFLƏR** |
| • Tədris Teatrının binasının yenidən tikilməsi |
| • Universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi |
| • Laboratoriya, studiya və yaradıcılıq mərkəzlərinin modernləşdirilməsi |
| • Tədris və yaradıcılıq fəaliyyətində istifadə olunan avadanlıqların yenilənməsi və rəqəmsal texnologiyaların inteqrasiyası |
| • Müvafiq sahə və ixtisaslar üzrə kadr potensialının mütəmadi monitorinqinin aparılması və nəticələr əsasında elektron məlumat bazasının yaradılması |
| • Tələbələrin akademik, sosial və psixoloji rifahını təmin edən çoxsəviyyəli tələbə-dəstək xidmətlərinin davamlı və səmərəli fəaliyyətinin təmin edən mexanizmlərin qurulması |
| **Beşinci strateji istiqamət: RƏQƏMSALLAŞMA VƏ SÜNİ İNTELLEKT** |
| **Məqsəd 1: Rəqəmsallaşmanın təhsilə inteqrasiyası** |

| |
|---|
| **HƏDƏFLƏR** |
| • Universitetin rəsmi veb-saytının təkmilləşdirilməsi |
| • Təhsil prosesinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi |
| • İnnovativ kitabxana modelinin təşkili, Universitet kitabxanasının fəaliyyətinin yenidən qurulması, zəruri İKT resursları ilə təmin olunması, fondlarda saxlanılan çap, audiovizual və elektron resursların vahid platformada cəmləşdirilməsi və onlardan geniş istifadənin, beynəlxalq kitabxana sistemlərinə çıxışın təmin edilməsi |
| • ADMİU Radiosunun yaradılması və ADMİU TV layihəsinin müasir texniki tələblərə uyğun şəkildə yenidən qurulması |
| **Məqsəd 2: Süni İntellektin tətbiqi və istifadəsi** |
| **HƏDƏFLƏR** |
| • “Süni İntellekt Siyasəti” sənədinin hazırlanması |
| • Süni intellekt modelləri vasitəsilə tədris, tədqiqat və idarəetmə proseslərinin optimallaşdırılması |
| • Süni intellekt üzrə kadr potensialının gücləndirilməsi |
| • Süni intellekt üzrə tədqiqat fəaliyyətlərinin gücləndirilməsi, innovativ layihələrin dəstəklənməsi və nəticələrinin tədrisə inteqrasiyası |
| • Süni intellekt laboratoriyasının yaradılması və davamlı fəaliyyət mexanizmlərinin formalaşdırılması |
| • Tədris olunan ixtisaslar üzrə Süni intellektin tətbiqini təmin edən fənlərin kurikulumlara inteqrasiyası və tədris proqramlarının müasir tələblərə uyğunlaşdırılması |
| • Müvafiq ixtisaslar və istiqamətlər üzrə Süni intellekt proqramlarının müəyyənləşdirilməsi və tətbiq |
| • Beynəlxalq ali təhsil məkanında Süni intellekt sahəsində təcrübənin öyrənilməsi və tətbiq mexanizmlərinin qurulması |
| • Akademik və inzibati heyətin, eləcə də tələbələrin rəqəmsal və Süni intellekt bacarıqlarının gücləndirilməsi məqsədilə kurs və təlim proqramlarının təşkili |

## IV. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

- Xüsusi qabiliyyət tələb edən incəsənət istiqamətli ali və orta təhsil müəssisələri üçün pedaqoji kadrların yetişdirilməsi;
- Mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə yüksək ixtisaslı, rəqabətdavamlı professional kadr potensialının yüksəldilməsi;
- Bütün təhsil pillələri üzrə əlçatan və yüksək keyfiyyətli təhsil siyasətinin təmin edilməsi;
- ADMİU-nun professor-müəllim heyətinin zamanın və əmək bazarının tələbinə müvafiq yenidən hazırlanması və təkmilləşdirilməsi;
- Əmək bazarı üçün rəqabətədavamlı məzunların yetişdirilməsi;
- Milli institusional və proqram akkreditasiyasında müsbət nəticələrə nail olunması;
- Beynəlxalq proqram akkreditasiyasında müsbət nəticələlərin əldə edilməsi;
- ADMİU-nun ölkəmizdə xüsusi qabiliyyət tələb edən ali təhsil müəssisələri arasında lider ali məktəb kimi gələcək inkişafı;
- ADMİU-nun maddi-texniki bazasının genişləndirilməsi;
- Müasir kitabxana fondunun və elektron kitabxananın təkmilləşdirilməsi;
- Təhsil xidmətlərinin keyfiyyətinə effektiv nəzarət mexanizminin yaradılması;
- Təhsil-yaradıcılıq-elm inteqrasiyasının təmin edilməsi;

-  Xarici ölkələrin qabaqcıl təhsil müəssisələrində pedaqoji, yaradıcılıq və elmi təcürbəyə, ixtisasartırma və yenidənhazırlanmaya şəraitin yaradılması;
- Təhsilin idarəedilməsində İKT-yə əsaslanan müasir forma və metodların yaradılması və tətbiqi.